Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

№ 69 (1437) 13 aprel - 14 aprel 2017-ci il

# Sabir Rüstəmxanlı poeziyada

**Azərbaycan ədəbiyyatı (elə dünya ədəbiyyatı da) çox az şair tanıyır ki, sağlığında bədii ədəbiyyatın təsvir-tərənnüm obyektinə çevrilsin, həm nümunəvi parlaq şəxsiyyəti, həm böyük ictimai-siyasi fəaliyyəti, həm də çoxşaxəli yaradıcılıq qüdrəti bədii obraz səviyyəsinə qaldırılsın. Bu, əlbəttə, sevindiricidir, ürəkaçandır və obrazlaşdırılan şairə məhəbbət və sayğıdır. Bu, həm də şairin sağ ikən ikinci ”mən”i ilə görüşüdür, real şəxsiyyətin bədii obraz səviyyəsində cəmiyyətə transferidir - ötürülməsidir, real obrazın bədii obrazla qarşılaşması - görüşüdür.**

Müstəqillik dövrü ədəbiyyatımızda: istər poeziyada, istər nəsrdə, istərsə də publisistikada Sabir Rüstəmxanlı obrazının yaradılmasında ciddi addımlar atılmış və bir sıra əsərlərdə bu, əsasən, uğurla nəticələnmişdir.

Xalq şairi Xəlil Rza Ulutürk, şairlərdən Musa Yaqub, Məhəmməd Rza Xəlilbəyli, yazıçı Yusif Həsənbəy və başqaları Sabir Rüstəmxanlı obrazını yaratmaqda daha davamlı mövqe sərgiləmiş, müxtəlif zamanlarda Sabir Rüstəmxanlı şəxsiyyətinə, ictimai-siyasi fəallığına diqqət çəkmiş, bu və digər əsərlərində Sabir Rüstəmxanlı obrazını reallaşdırmağa çabalar göstərmiş və bu istəklərini, əsasən, yetərincə gerçəkləşdirmişlər. Belə ki, X.R.Ulutürk bir çox əsərlərində (”Gərək o yerlərə səninlə gedəm”, ”Natəvan klubunda”, ”Yardımlı şəlaləsi”, ”Ömür kitabı”nı yazan şairə”, ”Şairimiz”, şair M.R. Xəlilbəyli ”Danışır Azərbaycan” poemasında, yazıçı Y.Həsənbəy ”Next” romanında Sabir Rüstəmxanlı obrazını, şəxsiyyətini, çoxmiqyaslı fəaliyyət dairəsini, əxlaqi-mənəvi keyfiyyətlərini, ədəbi-bədii çarpışmalarda ardıcıllığını, prinsipiallığını, dilimizin qorunmasında, saflaşmasında, cilalanmasında güzəştsiz mübarizəsini böyük məhəbbətlə qələmə almışlar.

Sabir Rüstəmxanlının yaradıcılığından, ictimai-siyasi fəaliyyətindən, ədəbi-bədii proseslərə yorulmaz müdaxiləsindən, ədəbiyyatımızın ölgün-durğun, süst-statik nöqtədən dəbərdilməsindəki yazıçı cəsarətindən, ədəbiyyatımızın ideya-məzmunca döyüşkən mövqeyə çıxarılmasındakı ardıcıl çabalarından daha çox yazan, həm də ehtiras və qaynarlıqla yazan, heç şübhəsiz, unudulmaz Xalq şairi, filologiya elmləri doktoru, M.F.Axundzadə mükafatı laureatı Xəlil Rza Ulutürkdür. Niyə? Çünki X.R.Ulutürk təbiətinə, xarakterinə, yaradıcılıq üslubuna, ehtiras-pafos coşğunluğuna Sabir Rüstəmxanlını özünə daha yaxın, daha doğma görürdü. İkincisi, türkçülük, turançılıq X.R. Ulutürkün ən yaxın, ən uzaq amacı idi və bu, eyni zamanda, Sabir Rüstəmxanlının da amacı, uğrunda çarpışdığı hədəfdir. Üçüncüsü, hər iki şair millidən milli, xəlqidən xəlqidir, parçalanmış - bölünmüş Vətənin birləşməsinə, vahidləşməsinə ömür qoyan, can əridən bütöv şəxsiyyətlərdir.

6 avqust 1986-da yazıb X.R.Ulutürk ”NATƏVAN KLUBUNDA” şerini. Həmin ilin 25 aprelində Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda Sabir Rüstəmxanlı ədəbiyyatımız, xüsusən ədəbiyyatşünaslıq və tənqid haqqında dərinməzmunlu, elmi-nəzəri baxımdan çəkili və sanballı bir məruzədə bulunur. Bu, zalı silkələyən, zalı içdən çalxalayan, zalı düşündürən-daşındıran məruzə idi-ciddi, qərəzsiz, obyektiv, prinsipial, əyalətçilikdən uzaq, zəka nuruna bürünən, qəlb atəşində qızınan bir məruzə. Zal gurultulu, sürəkli alqışlarla yola salır Sabir Rüstəmxanlını.

X.R.Ulutürk ”Natəvan klubunda” şerində məhz Sabir Rüstəmxanlının həmin məruzəsindən aldığı təəssüratı poetikləşdirir, bədiiləşdirir, bu məruzənin onda oyatdığı dəruni hiss-duyğuları, sevinc-fəxarət təlatümlərini oxucuları ilə bölüşür və oxucuları Sabir Rüstəmxanlı məruzəsinin sanbalına, ağırlığına, gərəkliliyinə inandırır, bu məruzənin dinləyicini yerindən oynatmaq gücünə heyrətləndirir.

*Natəvan klubunda bir çıxışı dinlədik,*
*Qəfildən yer kürəsi silkələndi elə bil,*
*Əyləşsə də, elə bil qalxdı ayağa dimdik*
*Yeknəsəq natiqləri dinlərkən yatan Xəlil.*

Qanadlandırır söz adamlarının ürəklərini. İşıqlandırır gözlərini. Yeni nəfəs, yeni ruh verir könüllərinə bu məruzə. Ədəbi tənqidi cərrah kimi doğrayır, təşrih edir, ortalığa qoyur kəm-kəsirlərini bu məruzə. Ədəbi tənqidin əsas vəzifəsindən sapdığını, uzaqlaşdığını, tərəfkeşlik, tayfabazlıq, əyalətçilik, dostbazlıq, stolbazlıq, təslimçilik azarına yoluxduğunu bəyanlayır bu məruzə. Ədəbi tənqidin inqilabilik, kəskinlik, döyüşkənlik, mübarizlik ruhunu itirdiyini var-gur səsilə ədəbi elitaya çatdırır bu məruzə.

*Nə qədər növü varmış yalaq gəzən, yalmanan,*
*Stolbazın kuryeri, quldarın qulu tənqid.*
*Yəhər olsa dərd yarı, ulağın çulu tənqid.*
*Sürünən kölə tənqid, tabutda ölü tənqid.*

X.R. Ulutürk göstərir ki, Sabir Rüstəmxanlı bu məruzədə faktlarla sübutlayır ki, sovet ədəbiyyatı (bəzi romanları, poemaları, dramatik əsərləri istisna etməklə) antixalq ruhlu, antiestetik mahiyyətli ədəbiyyat olub. Bu ədəbiyyat imperiya ideologiyasının əsas xidmətçisi, zuy tutanı, təbliğatçısı-təşviqatçısı olub. Kommunst partiyası barmağını hara tuşlayıbsa, ədəbiyyat da oraya gedib. Hakim ideologiya nədən yazmağı tövsiyə edibsə, ədəbiyyat da o tövsiyənin icraçısı olub. Şairlərimiz, yazıçılarımız öz istedad-bacarıqlarını, əsasən, xalqlar dostluğunun, partiyanın, Leninin, Stalinin, rus xalqının tərənnümünə, kommunist ideallarının gerçəkləşdirilməsinə xərcləyir, milli məsələləri, xalqın ehtiyac və möhtaclığını arxa plana keçirirdilər.

*Zalda şair zümrəsi    Şair, yoxsa seirbaz?*
*Nə qədər növü varmış - mitil, sovxa şeirbaz.*
*Özünü bülbül kimi təqdim edən keçəl qaz.*
*Yadların əlləriylə gözübağlı şeirbaz.*

Yalançı-şovinist ideologiya bağlamışdı nasirlərin əl-qolunu. Qara eynək taxmışdı gözlərinə. Məhdudlaşdırmışdı mövzu dairəsini. Acizlik, məzlumluq ab-havası hopdurmuşdu sözlərinə.



İmkan vermirdi ki, aşsınlar ideologiyanın qara çevrəsini. Yasaqlamışdı nasirlərə total rüşvətxorluqdan, ekoloji fəlakətdən, Azərbaycanın köksündə duz bağlamış acı-zəhərli göl və nohurlardan, nə qamış bitirən, nə balıq yaşadan, hətta qurbağaları belə qurudan zəqqumlu, mazutlu gölməçələrdən    Kənara qoymuşdular nasirlər bu ağrı-acıları. Unutmuşdular yoxsulluq - kasıbçılıq girdabında boğulan - soğulan ac-yalavacları. İsti kabinetlərdə rahatca oturub yazacağı roman, povest üçün rayonlardan aktual fakt toplayan nəsrbazları yamanca silkələmişdi, yamanca diksindirmişdi, kürklərinə yamanca birə doldurmuşdu Sabir Rüstəmxanlının tufanqabağı ildırım kimi çaxan bu məruzəsi:

*Zalda nasir zümrəsi. Nasir, yoxsa nəsrbaz?*
*Nə qədər növü varmış: nəsrə pərçim olanlar.*
*Telefonla zəng edib Qubadlıya, Laçına*
*Sənədli roman üçün aktual fakt alanlar.*

Ədəbiyyatın yaralarını təşrih edən böyük və təcrübəli cərrahdır, loğmandır. Söz ordusunun öndə gedən ayıq-sayıq kəşfiyyatçısıdır. Yeraltı keçidlərdən sürətlə şığıyan qatarlara tunel açan mahiranə bələdçidir. Böyük M.Ə. Sabir kimi dahi sələflərinin elmi-ədəbi bünövrəsi üstündə boy atan, bu bünövrəni bütün varlığı ilə qoruyan keşikçidir və həm də gələcək nəsillərə əmanət kimi ötürən layiqli - ləyaqətli varisdir Sabir Rüstəmxanlı Xəlil Rza Ulutürkün tərənnümündə.

*Kürsüdə bir gül qomu, yoxsa Vətən gülzarı,*
*Nura dözməyib qaçan, bəlkə, bir yarasaydı.*
*Tahirzadə Sabirin od tutardı məzarı,*
*Yeni kişi Sabirlər əgər yaranmasaydı.*

X.R.Ulutürkün təqdimatından bəlli odur ki, Sabir Rüstəmxanlı nifrətli-qəzəblidir kommunist diktaturasına. Çünki o, yaxşı bilir ki, diktatura gücə-zora, cəbrə-şiddətə söykənir. Baş əyməyənləri susdurur. Haqq danışanları qusdurur. Açıqgözlüləri zindanlara atır. Fikri aydınları dənizlərdə batırır. Xalq, millət deyənlərin dilini kəsir. Yurdsevərlərin başı üstündən şimal küləkləri kimi əsir. ”Ana dilim gözəldir” pıçıldayanları millətçitək damğalayır. Yüksək tribunalarda doğma dildə danışmağı qadağalayır

Boğulurdu ədəbiyyat. Nəfəsi təngiyirdi şair, nasir və tənqidçilərin bu boğuq, bu üfunətli havada. Yazır-yaradırdılar bu natəmiz ədəbi mühitdə. Ortaya qoyduqları isə xalqa-millətə əsla gərək olmayıb. Gərək olub ”yuxarılara” - ədəbiyyatı siyasətin yedəyinə bağlayanlara. Və bütün bu müdhişliklərə etirazlanır, dirənişə qalxır Sabir Rüstəmxanlı:

*Hazırın nazirləri bu dərdlərdən çox kənar,*
*Biganələr şənliyi, bəlkə, ən böyük kədər.*
*Akademik adıyla əlli ilə gor eşən var,*
*Yurda xeyir verməyib barı bir ilan qədər*

X.R. Ulutürkün yaratdığı Sabir Rüstəmxanlı obrazı mənən də, cismən də azmandır, qüdrətlidir, Savalan çiyinlidir, dəmirağacı gövdəlidir. Çölü də, içi də nurdur - işıqdır. Elinə- obasına yar - yaraşıqdır. Gözləri hiylə - kələkdən uzaqdır. Oxucularının da, qələm sahiblərinin də, Azərbaycan insanının da yanında alnıaçıq, üzüağdır. Qorxu - hürkü bilmir. Ürəyi ilə dili arasında sərhəd yoxdur. Ürəyində söz qəbiristanlığına yer ayırmayıb, yəni ürəyindən keçən ağıllı sözləri dilində səsləndirib. Bəzi şairlər kimi sözü ürəyində zəncirləyib öldürməyib    Budur, xitabət kürsüsündə görünür - uca dağ kimi. Fikrindən, nitqindən salon işıqlanır - çilçıraq kimi. Həm öz kişi gözəlliyi, həm nitqinin özəlliyi gözəlləşdirir Natəvan klubunu. Ucaldır, genişləndirir, böyüdür klubun sağ-solunu. Səpir salona ürəyinin atəşini - odunu. Fikri, düşüncələri, qənaət - tövsiyələri qələmdaşlarının yoluna işıq tutur və Sabir Rüstəmxanlı şəxsiyyəti bu işıq fonunda ucalır, yüksəlir, əzəmətləşir, minlərin, milyonların əzizinə - sevimlisinə çevrilir:

*Ağ köynəyi ağappaq, qalstuku miləmil,*
*Bir aləmdir gözümdə adi mahud kostyumu*
*Şəxsiyyəti ucaldan məgər geyimmi, qafil,*
*Öyrən nədir yüksəldən sənin qələm dostunu.*

Nümunəvi vətəndaşdır Sabir Rüstəmxanlı X.R.Ulutürkün qələmində-şir ürəkli, aslan biləkli, alim təfəkkürlü, şair xəyallı vətəndaş! Kamil, müdrik, cəfakeş, vəfakeş, qibtəedilən vətəndaş!

*Vətəndaş olmayanda. Xayır! Olmaya bilməz!*
*Kürsüdə məşəl kimi yanır natiq vətəndaş.*
*Od yurdunun odudur bu iqtidar, bu nəfəs.*
*Yurdaşlarım ellikcə ona bənzəyəydi kaş!*

Bütün parametrləri ilə yanaşı, Sabir Rüstəmxanlını həm də gözəl natiq kimi təqdim edir oxuculara X.R.Ulutürk. O, hamının anlaya biləcəyi səviyyədə danışır - sadə, aydın, rəvan, səlis, dəqiq, yığcam. Fəqət bu sadəlikdə bir dərinlik, müdriklik, bir səmimiyyət, doğmalıq çalarları ehtiva olunmadadır. Səmimiyyət elə istedad deməkdir. Lakin hər istedad səmimi olmaya da bilər. Bu baxımdan səmimiyyət Sabir Rüstəmxanlının qanından-canından, ruhundan, od-ocağına isindiyi ata-baba yurdundan süzülüb gəlir. Səmimiyyət duruluqdur. Saflıqdır. Paklıq-şəffaflıqdır. Haqq işə, doğru fikrə sədaqətdir. Nitq gözəlliyinin bu universal göstəriciləri Sabir Rüstəmxanlı obrazında tam dolğunluğu ilə özünü göstərir:

*Ürəyi ovcundadır, danışır necə sadə,*
*Danışır necə aydın, necə ağıllı, dəli.*
*Dəli-dolu könüllər möcüzədir, əslində,*
*Xalqın xəzinəsidir, məncə, ağıllı ”dəli”.*
*Alovlanır, tüstüsü başından çıxmasa da,*
*Ölkə , üşüyən ölkə bu atəşə sığınır.*

Bəli, Sabir Rüstəmxanlının təkcə Natəvan klubundakı məruzəsi yox, habelə digər əsərləri də ”üşüyən ölkəni” isidir, şüurlardakı buz qatlarını əridir, xalqı-milləti baharlara-yazlara çağırırdı.

”GƏRƏK O YERLƏRƏ SƏNİNLƏ GEDƏM” şerində X.R. Ulutürk Sabir Rüstəmxanlının boya-başa çatdığı Yardımlı bölgəsinin tanrısal gözəlliklərini: yüz qollu, min qollu məşhur Yardımlı şəlaləsini, səmadan dərin dərələrini, qırovda üşüyən bənövşələrini, Atlant heykəlitək ucalan sal-çal qayalarını, dağları caynağında qaldıran məğrur qartallarını, dağlardan dənizlərəcən ətri-qoxusu yayılan nazənin otların titrəyişlərini bir gözəllik sərrafıtək poetik sözün işığında tərənnümə çəkir və haqlı olaraq qəhrəmanının sağlam-gümrah böyüməsində, əxlaqi-mənəvi kamilləşməsində, dünyaca sevilən-sayılan söz sahibi olmasında bu gözəllik komponentlərinin rolunu önəmli sayır:

Dərələr o yerdə səmadan dərin,
Çiçək ləpə-ləpə, gül təpə-təpə.
Qırovda üşüyən bənövşələrin
Əyilim üzündən-gözündən öpəm.

Misilsizdir mühit, tərbiyə, adət-ənənə şəxsin harmonik boy atmasında, hiss-duyğularının durulmasında, məslək-əqidəsinin dönməzliyində. X.R.Ulutürkün qəhrəmanı Sabir Rüstəmxanlı yoxsul həyatı, təmiz adı mənsəb və şöhrətdən uca tutan halallıqsevər bir ocaqda böyümüşdü. Yaşa dolmuşdu milyon illər yol gələn müqəddəs adətlərin nəcib qucağında. Mərdlik, sərtlik öyrənmişdi əlləri bir an belə işdən soyumayan Xudu kişinin amiranə, ağayana davranışından. Allah ucalığında görmüşdü çörəyi, bərəkəti Ağanaz ananın dairəvi təndiri başında. Elmə-biliyə səsləmişdi Sabiri kotan ağzından düzəldilmiş məktəb zəngi və s. Belə bir zəngin-əngin mənəviyyat sferasında boy göstərən Sabir Rüstəmxanlı millət sevgisinə, xalq məhəbbətinə köklənməyə və vətənin müstəqillik və istiqlalı uğrunda döyüş-savaşlara özünü səfərbər etməyə bilməzdi:

*Sağ ol, ana məktəb. Balan o nadinc*
*Heç bildinmi necə atıldı cəngə?!*
*Bu kotan zəng ilə çağırdığın gənc*
*Döndü xalqımızı oyadan zəngə.*

Vətənə Məcnun yanğılıdır. İsfəhan, Həmodvan, Xoy    həsrətlidir. Xətayi qılınclı, Xətayi əqidəlidir. Amadədır yurdun dörd tərəfinə at səyirtməyə X.R. Ulutürkün Sabir Rüstəmxanlısı. Sızladır ürəyini nadanların yurdu bölgələrə bölməyi. Məmləkətə ”ucqar”, ”mərkəz” yarlıqları yapışdıranlar. Nifrətlidir bölücülüyə, parçalanmağa hesablanan bu muxtariyyət dəllallarına Sabir Rüstəmxanlı:

*Kimdir ucqar deyib səni sızladan,*
*Biz ki, hüdudsuzuq yerlə göy təki.*
*Bağlanmış yolları Təbrizə çatan,*
*Əlləri dənizdən dənizə çatan*
*Yardımlı Vətənin ortasıdır ki!*

Şah Xətayinin ruhu dolaşan dağlarda gəzdirir Sabir Rüstəmxanlını X.R. Ulutürk. Hamarkənddən Təbrizə, Həmodvana, Zəncana uzanan həsrət yollardan keçirir Sabir Rüstəmxanlını X.R. Ulutürkün söz karvanı. Gilanda, Xoyda qardaş boyuna tamarzı qolların nisgilini, qəmini duydurur Sabir Rüstəmxanlıya X.R. Ulutürk qələmi, X.R.Ulutürk fəryad və inadı!

**(Ardı var)**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ